# Gəlin daşı

Bir gəlin körpəsi qucağında Murov dağından keçib atası evinə gedirmiş. Birdən bərk külək qopur. Gəlin görür ki, külək uşağı onun əlindən alacaq. Odur ki, yalvarmağa başlayır:

- Ey göylər, küləyi yavaşıt, bizi xilas elə!

Külək daha da şiddətlənir. Gəlin yenə də yalvarıb deyir:

- Ey fələk, qoyma külək balamı əlimdən alsın, bizi bir-birimizdən ayırsın. Bizi bir yerdə daş elə.

Gəlin uşağı bərk-bərk bağrına basır. Eləcə də daşa dönürlər...

# Qısır dağ

Bir bəy öz qoyunlarını müftə saxlamaq üçün adam axtarır. Bir çoban onunla rastlaşır. O, çobanla belə bir şərt kəsir ki, qoyunlarımı on il müddətində saxla, on il tamam olduqda mən sənə qoyunlarımın bir illik balasını verim. Çoban bəyin bu şərti ilə razılaşır. O gündən çoban bəyin sürüsünü otarmağa başlayır.

Doqquz il tamam olur. Həmin il çoban bəyə bildirir ki, artıq gələn il vədə tamam olur. Bunu eşidən bəy o ili bütün qoçları burdurur. Çobanın bu işdən xəbəri olmur. O, qoyunları böyük bir dağın ətəyində otarırdı. Beləliklə, həmin il qoyunların heç biri qoça gəlmir və quzuları olmur.

Qoyunlar dağdan arana qayıdır. Çoban elə bilir ki, qoyunların bala verməməsi, qısır qalması o dağın otundandır, o dağ günahkardır. Çobanın sözünə görə o vaxtdan həmin dağın adı "Qısır dağ" qalır...